# Vaqif Mustafazadə-75

## *Azərbaycan muğam caz hərəkatının memarı*



***Dünya şöhrətli caz ustası Vaqif Mustafazadə 16 mart 1940-cı ildə dünyaya göz açıb. Azərbaycan musiqi sənətində caz musiqisinin banisi kimi tanınan Vaqif Mustafazadəni yaradıcılıq uğurları hər zaman izlədiyindən, o, milli sənət nümunəsini, eləcə də, istedada malik ifaçılığını göstərə bilmişdir. Yaradıcılıq yolu qısa, tələm-tələsik olsa da, bu məsafədə sənətkarın müdrik addımları ona əsrlər qədər bir ömür verdi. Zamanının saatı ömür yolunda dayansa da, səslənən musiqisi hələ də onun həyat yolunun ritminin ahəngində vurur. Hər notunda canlı varlıq tək görünür, hiss edilir. Vaqif dünyası böyük və əzəmətli bir aləmdir. Bu aləmin açarı onun yaradıcılıq yolunun girdabına daxil olarkən, daha aydın və bənzərsiz olur.***

Asəf Zeynallı adına Bakı Dövlət Musiqi Texnikumunu bitirən Vaqif Mustafazadə Gürcüstan Dövlət Filarmoniyasında “Qafqaz” caz triosunun yaradıcısıdır. Onun təşəbbüsü ilə fəaliyyətdə olan ilk qadın vokal kvarteti “Leyli”, daha sonra isə, “Sevil” Vokal İnstrumental Ansamblı Azərbaycan milli estradasının inkişafında xidmətə malikdir. Eyni zamanda, “Muğam” İnstrumental Ansamblına rəhbərlik də onun yaradıcılıq fəaliyyəti ilə bağlıdır. “Tallin - 66”, “Tbilisi - 78” Ümumittifaq Caz Festivallarının laureatı olan sənətkar təkcə Azərbaycan milli musiqi sənətində deyil, dünya musiqisində də öz yerini tuta bilmişdir. Bəstəkarların Monakoda keçirilən beynəlxalq caz musiqisində də uğuru onun dünyada sözünü deyə bilən ifaçı olduğunu təsdiqləyən amillərdəndir. Bu festivalda da sənətkar dünya musiqiçiləri sırasında birincilik qazanaraq, Azərbaycana böyük nailiyyət bəxş etmiş oldu. Amma etiraf edək ki, Vaqif Mustafazadə dövlət tərəfindən vaxtında öz qiymətini ala bilmədi. Bu da niyyəti xoş olmayan insanların ona qarşı olan şəxsi intriqa və münasibətləri ilə bağlı idi. O, bir müddət qəbul olunmadı, amma zaman həqiqətləri üzə çıxardı və ona verilən qiymətlər Vaqifin hansı şöhrət sahibi olduğunu göstərdi. Vaqif Mustafazadə Azərbaycan Dövlət mükafatı laureatı, Azərbaycanın əməkdar artisti kimi fəxri adların daşıyıcısına çevirir.

Bu gün fortepiano ilə orkestr üçün konserti, “Muğam” simfoniyası möcüzələr axarında dünyanı dolaşır, hər hər konsert salonunda onun kimliyi cizgiləri ilə məlum olur. Deyirlər, onun qeyri-adiliyi fonunda zaman geriyə işlədi. Bəli, bu, bir həqiqətdir ki, zaman istedad, dahi, böyük şəxsiyyətlərin həyat yolunda öz gücünü, bəzən də diqtəsini yerinə yetirə bilmir. Vaqif də bu qism insanlar sırasındadır.

Keçmişin qaranlıq tarixini, sirlərini, şirin nağıllarını əsərlərində yaşadan və bu ecazkarlıqdan mənən güc alan pianoçu dilləndirdiyi səslərlə dünyanı heyrətləndirəcəyini bəlkə də düşünmədi. Düşündüyü yalnız və yalnız sənət meyarlarını gerçəkləşdirmək, ruhi dünyası ilə insanları musiqinin kökündə yaşatmaq və əsrarəngizliyi lirik - psixoloji bir yolla insan düşüncəsinə hopdurmaq idi. Belə də oldu. Vaqif İçərişəhərin divarlarından süzülüb gələn ahəngi musiqi dilinə çevirdi. Dünyəvilik qazandırdı bu sevgi Vaqif Mustafazadəyə. Vaqif üçün İçərişəhərin özünəməxsus həniri, minbərlərdən ucalan dua səsləri, dənizin bəzən pıçıltıya dönən, bəzənsə guruldayan ləpələri, daha nələr adi səslər olmadı. Bunlar onun musiqisinin ilk akkordlarına çevrildi. Təbii ki, İçərişəhərin bütün səsləri yaşandı bu musiqidə. Bu dar dalanlardan gələn səslər onu dünya musiqisi ilə müşayiət etdi.

Tallinin “Kalev” idman zalındakı uğuru ona başgicəlləndirici bir hiss yaşatmadı. Dörd gün davam edən festivalın sonlarına yaxın heç kimin yaxşı tanımadığı cazmen səhnəyə çıxır. Onunla bağlı mənəbələrdə qələmə alınır... “O insanı ki, mən sevirəm” əsərini ifa edən bu ifaçı tamaşaçıları sanki əfsunlayır. Əfsunlaşmış tamaşaçılar arasında birinci ayağa qalxan Yohanson olur. Heyrətindən təmkinini itirən Yohanson “öncə o, sonra mən qalib olacağam” deyə var səsi ilə qışqırır. V.Konover sonradan Vaqif Mustafazadənin çıxışının onda oyatdığı təəssüratı belə bölüşür: “Vaqif qeyri-adi pianoçudur. Dünya cazında ona bərabər musiqiçi tapmaq çətindir”. Konover ömrü boyu onu tərk etməyəcək təəssüratın nəticəsi olaraq, Vaqif Mustafazadəni Tallində keçirilən növbəti caz festivalının da şəriksiz qalibi elan etmişdi. Tallində qazandığı böyük uğurdan sonra Vaqif Gürcüstana deyil, Azərbaycana döndü. Bu, qəribə bir dönüş idi. Vaqif Mustafazadə uğur qazandıqdan, dünayanın ən məşhur musiqiçiləri arasında fərqlənəndən sonra onu qiymətləndirməyən, ecazkar musiqisini eşitməzliyə vuran həmvətənləri arasına dönür. İlk vaxtlar Vaqifin uğuru anılsa da, az keçməmiş hər şey əvvəlki yerini alır: laqeydlik, biganəlik, soyuqluq... Vaqifsə bütün bunlara əhəmiyyət verməyərək, 1969-cu ildə Bakıda keçirilən caz festivalında nəyə qadir olduğunu bir daha sübut edir. Gerçəkliyi qəbul etmək istəməyənlər daha canfəşanlıqla onun əleyhinə təbliğat aparırlar. Vaqifin yaradıcılığını milli musiqimizə, muğama xəyanət kimi qiymətləndirənlər bununla da kifayətlənmirlər. Vaqifin televiziyada solo konsert vermək cəhdi dəfələrlə boşa çıxır. Vaqif bu ədalətsizliyin, haqsızlığın fövqündə dayansa da, gündən-günə gərilən əsəblər bir gün özünü büruzə verir. 29 yaşlı sənətkar ölümlə üz-üzə gəlir. Ancaq bu dəfə xəta sovuşur. Deyilənə görə, yatağa düşən Vaqif Mustafazadə hər gün anasından xahiş edir ki, “Bayatı-Şiraz” çalsın. “Anamın ifasında eşitdiyim “Bayatı-Şiraz” dünyanın ən gözəl melodiyasıdır” deyən Vaqif çətin günlərində də musiqiyə üz tutur.

Monakoda keçirilən festivalda elə bu uğurlarla yadda qalmışdır. Festivalın şərtlərinə görə, əsərin müəllifi, ifaçısı hətta onun hansı ölkəni təmsil etməsi gizli saxlanılmalı idi. Münsiflər heyəti bu lentləri bir-bir dinləyib, qalibi müəyyənləşdirdikdən sonra, əsərin müəllifi, ifaçısı, o cümlədən, ölkənin adı elan olunacaqdı. Yüzlərlə naməlum ad içərisindən yenə də bizə doğma ad çəkilir:”Azərbaycan”, Vaqif Mustafazadə, “Əzizəni gözləyərkən”. Vaqif Monako Caz Festivalından vətənə “Ağ royal” mükafatı ilə qayıdır. Monako Festivalına qatılan minlərlə insan ecazkar musiqinin sədalarına heyran kəsilir. Azərbaycanda isə hələ də Vaqif Mustafazadənin adının belə çəkilməsini istəmirlər. Deyilənlərə görə, Vaqif növbəti konsertlərindən birini (bu, tarixə son konsert kimi düşəcək) Bakıda verməyi planlaşdırırmış. Ancaq bədxahlar onun bu istəyini gerçəkləşdirməyə qoymurlar və Vaqif faciəvi sonluqla bitən son konsertini Daşkənddə verməli olur. Vaqif Mustafazadə Daşkənd konsertində səhnəyə son dərəcə əsəbi, incimiş, bütün bu haqsızlıqlardan boğaza yığılmış halda çıxıb. Çünki Daşkənddə konserti təşkil eləməyi öz boynuna götürənlər onu aldatmışdılar. “Bakıda hazırlanan afişalar Daşkəndin küçə və meydanlarında asılıb” desələr də, əslində, konsertlə bağlı adi bir elan da verilməmişdi. Bütün bunlar konsert günü məlum olur. Dünya şöhrətli sənətkarın Daşkəndə gəlişindən, hətta musiqi aləminin də xəbəri yox imiş. Pərəstişkarlarının xəbər tutmadığı bu konsertə barmaqla sayılacaq qədər tamaşaçı yığılır. Onlar isə təsadüfən bu konsertdən xəbər tutanlar idi. Vaqif konserti onlara görə təxirə salmaqdan daşınır. Piano arxasına keçir. Çalır. Aram-aram, sonra isə getdikcə şiddətlənən ürək sancılarına baxmayaraq, çalır, çalır... Ancaq Vaqif Mustafazadəyə bu konsertin son akkordlarını vurmaq nəsib olmur. Vaqifin ürəyi səhnədə dayanır... “Dünyada ən çox anamı, böyüyüb boyabaşa çatdığım İçərişəhəri, bir də dənizi sevirəm” deyən Vaqif sənəti kimi, ömrüylə də bədxahlarına meydan oxuyur. 16 mart tarixində dünyaya göz açan Vaqif Mustafazadə elə 16 dekabr tarixində dünyasını dəyişir. Bu gün hər il olduğu kimi sənətkarın xatirəsini bizlərə qalan əsərləri, bir də böyük iftixarla xatırladığımız uğurları ilə yad edirik. Bu zəngin irs bizləri çox-çox illər xəyallarda, Vaqif dünyasında yaşadacaq.

*Hazırladı: ZÜMRÜ*